

# BÖLÜK ÜZƏRİNƏ DÜŞƏN ÖHDƏLİKLƏRİ LAYİQİNCƏ YERİNƏ YETİRİR

***17072 saylı hərbi hissənin daha bir qabaqcıl bölüyü Qazax rayonunda yerləşən əlahiddə patrul bölüyüdür. Bölük komandiri kapitan Elvin Abdullayev əvvəlcə bölüyün üzərinə düşən vəzifələrdən danışdı. Bildirdi ki, bölük hüquq-mühafizə qurumları ilə yanaşı, rayonda daxili sabitliyin qorunmasında, hüquqazidd əməllərin qarşısının alınmasında fəallıq nümayiş etdirir. Bölüyün qarşısında duran əsas vəzifələr onlara təhkim olunmuş ərazilərdə ictimai asayişin və ictimai təhlükəsizliyin təmin olunmasıdır.***





Döyüş tapşırığının qorunub saxlanılması məqsədilə şəxsi heyətin atəş hazırlığına və fiziki göstəricilərinə ciddi diqqət yetirildiyini deyən kapitan E.Abdullayev hərbi qulluqçularla keçirilən təlimlərə şəxsən nəzarət etdiyini bildirdi: “Qarşıya qoyulmuş tapşırıqlar məsuliyyətimizi bir qədər də artırır. Şəxsi heyətin döyüş hazırlığının daha da yüksəldilməsi istiqamətində aparılan işlərlə yanaşı, onların nizam-intizamına da ciddi fikir verilir. Bunun üçün şəxsi heyətlə, xüsusən də müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə mütəmadi olaraq fərdi söhbətlər aparılır, onların mənəvi-psixoloji durumları öyrənilir. Yəni bölükdə ruh düşkünlüyü yarada biləcək hər hansı bir hadisənin qarşısı vaxtında və qətiyyətlə alınır”.

Təbii ki, şəxsi heyətin təlim-tərbiyəsində, möhkəm nizam-intizamın qorunub saxlanılmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini kapitan Qüdrət Əliyevin üzərinə daha çox məsuliyyət düşür.

O, bölüyün gündəlik fəaliyyəti barədə ətraflı məlumat verdi. Qeyd etdi ki, bütün xidmət sahələri üzrə şəxsi heyətin gündəlik xidməti-döyüş fəaliyyətinə məsul vəzifəli şəxslər tərəfindən tam nəzarət olunur. Bölükdə şəxsi heyətin asudə vaxtının təşkili müvafiq plana uyğun olaraq səmərəli şəkildə həyata keçirilir.

Hər bir taqım üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirir. Bölüyün gün növbətçisi, nəzarət buraxılış məntəqəsinin növbətçisinin köməkçisi, avtopark, eləcə də əsgər yeməkxanası naryadına patrul və təminat taqımları, silahlı patrul xidmətinə isə komendant taqımı cəlb olunur.

Şəxsi heyətin Daxili Xidmət Nizamnaməsində nəzərdə tutulmuş qaydalara ciddi riayət etməsi, bölükdə yüksək nizam-intizamın, sağlam mühitin yaranmasını şərtləndirir. Belə bir mühitin mövcud olması isə nəticə etibarı ilə sağlam düşüncəli, hərtərəfli hazırlığa malik əsgərlərin formalaşmasına zəmin yaradır. Elə bunun nəticəsidir ki, Qazax rayonunda yerləşən əlahiddə patrul bölüyündə xidmət edən hər bir əsgər hədsiz Vətənə bağlı, dövlət və dövlətçiliyə sadiqdir.

Bölüyün nümunəvi xidməti ilə seçilən, öz üzərində daima səylə çalışan, verilən tapşırıqları vaxtında yerinə yetirən hərbi qulluqçulardan leytenant Qurban Səfərlinin, leytenant Rəşad Hüseynovun, kiçik çavuş Nurlan Əhlimanlının, baş əsgər Rəvan Əlibəylinin, əsgərlər Rəhim Bədəlovun və Sadiq Kazımlının adlarını vurğulamaq olar.

Şəxsi heyətlə söhbət zamanı bir daha aydın oldu ki, Daxili Qoşunlarda xidmət edən hər bir hərbi qulluqçu kimi onlar da Azərbaycanın suverenliyi, müstəqilliyi naminə canlarından keçməyə hazırdır, içdikləri Hərbi Anda sadiqdirlər.

**baş leytenant T.Əlizadə**

# HƏRBİ QULLUQÇULARIN DÖYÜŞ RUHU YÜKSƏKDİR

***Ölkədəki ictimai təhlükəsizliyin və ictimai asayişin qorunub saxlanılmasında Daxili Qoşunların fəaliyyəti danılmazdır. Paytaxt Bakı ilə yanaşı, regionlarda da daxili sabitliyin keşiyində duran Daxili Qoşunlar üzərinə düşən vəzifələri, eyni zamanda qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə icra etməkdədir. Bu baxımdan, qoşunların Gəncə şəhərində yerləşən 17072 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsi də xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir.***

Dəstə komandiri vəzifələrini müvəqqəti icra edən mayor Rövşən Nəsibov bu istiqamətdə görülən işlərdən danışdı. Mayor R.Nəsibov bildirdi ki, ilk olaraq hər bir hərbi qulluqçu xidmət etdiyi sahədə mükəmməl biliklərə sahib olmalıdır. Bu məqsədlə dalarının da ciddi nəzarətdə saxlanıldığını vurğuladı.

O, şəxsi heyətin hər bir tapşırığın öhdəsindən layiqincə gəldiyini diqqətə çatdıraraq, onların mənəvi-psixoloji durumunun qənaətbəxş olduğunu dedi. Bu baxımdan dəstə komandirinin tər-



dəstənin şəxsi heyəti mütəmadi olaraq həm nəzəri, həm də praktiki məşğələlərə cəlb olunur. Nəzəri məşğələlər zamanı şəxsi heyətə onlara təhkim olunmuş xüsusi silahlar haqqında nəzəri biliklər, onlardan düzgün istifadə qaydaları, o cümlədən xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri tədris olunur, silahlardan fərdi qaydada istifadə üsulları öyrədilir. Onun sözlərinə görə, kifayət qədər nəzəri biliklərə yiyələndikdən sonra hərbi qulluqçular praktiki təlimlərə cəlb olunurlar. Təlimlər zamanı bölmə, qrup, yarımqrup tərkibində praktiki fəaliyyət məşq etdirilir. Peşə vərdişlərinin artırılması istiqamətində bütün lazımi tədbirlərin həyata keçirildiyini deyən dəstə komandiri təlimlərdə təhlükəsizlik qay-

biyə işləri üzrə müavini kapitan Bəxtiyar Əliyevin əməyini yüksək qiymətləndirdi.

Kapitan B.Əliyev şəxsi heyətlə həm kollektiv, həm də fərdi qaydada tərbiyəvi söhbətlərin aparıldığını söylədi. Hərbi qulluqçularda Vətənə sonsuz məhəbbət, dövlətə və dövlətçiliyə sədaqət hisslərinin aşılandığını deyən komandir müavini hərbi qulluqçuların döyüş ruhunun yüksək olduğunu bildirdi. O, görülən işlərdə ona yaxından köməklik göstərən qrup komandiri gizir Beyrək Əsgərovun, yarımqrup komandiri baş çavuş Ramil Əliyevin, atıcılar çavuş Mətləb Xəlilovun, çavuş Asim Şirinovun və əsgər Samir Qaralının adlarını sadaladı.

**baş leytenant T.Əlizadə**

# NÜMUNƏVİ XİDMƏT



**Gizir Qurban Məmmədov** 1992-ci il sentyabrın 6-da Cəbrayıl rayonunda dünyaya göz açıb. O, orta məktəbi 2008-ci ildə doğulduğu kənddə bitirib. 2010-2012-ci illərdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə

Xidmətində müddətli həqiqi hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra uşaqlıq arzusunu reallaşdırmaq üçün 2014-cü ildə Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayır. İlk günlərdən nizam-intizamı və işinə, xidmətinə münasibətiylə seçilən gizir Q.Məmmədov kollektivin dərin rəğbətini qazanır. Bir müddətdən sonra hərbi biliklərini təkmilləşdirmək üçün Daxili Qoşunların Ali Hərbi Məktəbinin gizir kursuna qəbul olaraq, kursu müvəffəqiyyətlə başa vurur.

O, hazırda xüsusi vasitələrin tətbiqi dəstəsində yarımqrup komandiri vəzifəsindədir. Öz vəzifəsinin öhdəsindən məharətlə gələn komandir daxili qayda-qanuna, hərbi intizama, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına daim nəzarət edir. Qrup komandiri tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı digər yarımqruplarla qarşılıqlı əlaqə yaradaraq, şəxsi heyətin təlim-tərbiyəsinə və keçirilən məşğələlərdə tam tərkibdə iştirakına həssaslıqla yanaşır. Daxili Qoşunların Döyüş Xidməti Nizamnaməsinin tələblərinə əsasən yarımqrupda xüsusi vasitələrdən istifadə, onların saz vəziyyətdə saxlanılması və yerində olmasına xüsusi diqqət yetirir. Fəaliyyət istiqaməti üzrə tədbirləri vaxtında görməyi, aşkar olunmuş nöqsanların aradan qaldırılmasında tabelikdə olanlara köməklik göstərməyi özünə borc bilən gizir Q.Məmmədovun ən böyük arzusu torpaqlarımızın yağı düşmənin işğalından azad olunduğu günü görməkdir.



**Əsgər Kamal Namazov** 1994-cü il aprel ayının 16-da Sabirabad rayonunda anadan olub. 2010-cu ildə orta məktəbi bitirən Kamal 2012-2013-cü illərdə Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Xidmətini başa vuraraq öz arzusuna müvafiq olaraq 2015-ci ildə Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir.

Ona həvalə olunmuş vəzifələri və verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirən əsgər K.Namazov ona təhkim olunmuş silahın vəziyyətinə, təmizliyinə hər zaman diqqət yetirir.

Hərbi xidmətdə nizam-intizamlı olmağı ən vacib amillərdən sayan hərbi qulluqçumuz Daxili Qoşunlarda xidmət etdiyi üçün fəxr etdiyini bildirdi. O, bu gün qazandığı hörməti, nailiyyəti heç vaxt itirməyəcəyini, bunun üçün bütün gücünü səfərbər edəcəyini xüsusi olaraq vurğuladı.

**leytenant N.Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR

## Azərbaycan tankçıları reytinqə görə 5-ci yerdədir



“Beynəlxalq Ordu Oyunları - 2016” yarışları çərçivəsində keçirilən “Tank biatlonu” müsabiqəsində iştirak edən Azərbaycan tankçıları fərdi yarışlar zamanı müsabiqənin növbəti mərhələsində bütün hədəfləri məhv edərək, Ermənistan komandasını qabaqlayıb və yarımfinala vəsiqə qazanıblar.

15 mərhələdən ibarət olan və 18 ölkədən 54 tank heyətinin iştirak etdiyi müsabiqənin yarımfinalında Azərbaycan da daxil olmaqla, 12 ölkənin komandası iştirak edəcək.

Yarımfinal yarışları zamanı 4 komandadan ibarət qruplarda Azərbaycan tankçıları Rusiya, Serbiya və Hindistan komandaları ilə gücünü sınayacaq.

Qeyd edək ki, reytinqə görə, Azərbaycan tankçıları ən yaxşı heyət sıralamasında 5-ci yerdədir.

## Hərbi dənizçilərimiz “Dəniz Kuboku”nda



Azərbaycan Hərbi Dəniz Qüvvələrinin “G-124”, “G-122” gözətçi gəmisi və bir yedək gəmisi Rusiyada keçirilən “Dəniz Kuboku” beynəlxalq dəniz yarışlarına qatılıb.

Yarışın avqustun 3-də keçirilmiş birinci mərhələsində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin heyəti uğurla çıxış edib. Birinci mərhələdə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gəmiləri hava hədəflərinə atışlardan 40 bal toplayaraq qrup üzrə 1-ci yerə çıxıb. Qazaxıstan 35 balla 2-ci, Rusiya isə 30 balla 3-cü olub.

Kiçik ölçülü hədəflərə atışda isə 40 balla Qazaxıstan 1-ci, 20 balla Azərbaycan 2-ci, 15 balla Rusiya 3-cü yerdə qərarlaşıb.

Ümumilikdə, Azərbaycan Hərbi Dəniz Qüvvələri 60 balla qrup üzrə ikinci yerdədir.

# HİKMƏTLİ KƏLAMLAR

*Öncə oyunun qaydalarını öyrənməlisən, sonra da hər kəsdən yaxşı oynamağı.*

***Eynşteyn***

*Dünyada müvəffəqiyyət qazanmanın iki yolu vardır: öz ağılından və başqalarının ağılsızlığından faydalanmaq.*

***Bruyere***

*Əgər sən hədəfə doğru gedirsənsə və bu yolda sənə hər hürən itə daş atmaq üçün dayanacaqsansa, onda heç vaxt hədəfə çatmayacaqsan.*

***Dostoyevski***

*Qorxularınızdan xilas olmaq istəyirsinizsə, həyatda ən çox qorxduğunuz şeyin bir gün başınıza gələcəyini qəbul edin.*

***Sokrat***

*Asan həyat arzu etmə, güclü insan olmağı arzu et.*

***Kennedi***

*Kasıbam deyə nə üzülürsən? Ağlın başında və dəstəksiz ayaqüstə dura bilirsənsə, ən zəngin qul sənsən. Bilmirsənmi?*

***Mövlanə***

*Dünya hər kəsə yetəcək qədər böyükdür. Ona görə də başqasının yerini qapmaqdansa, çalışaraq həqiqi yerinizi tapın.*

***Çaplin***

*Bəzən elə danışacaqsan ki, qarşındakı cavab verə bilməyəcək.*

*Bəzən də elə susacaqsan ki, qarşındakı danışmağa belə cəsarət edə bilməyəcək.*

***Marquez***

*Keçmişi dəyişdirə bilməzsiniz, amma gələcək hələ də ovuclarınızın içindədir.*

***Vayt***

*Heç vaxt deməyin ki, “Siz məni başa düşmədiniz”. Deyin ki, “Mən öz fikrimi yaxşı ifadə edə bilmədim”.*

***Rober***

*Bilənlər danışmır, danışanlar da bilmir.*

***Lao Tzu***

*Pul qazanmaq üçün sağlamlıqlarını itirirlər. Sonra sağalmaq üçün pul xərcləyirlər.*

***Aristotel***

*Qəlbinizi açmaq istədiyiniz adamı tam tanımadan sirrinizi ona açmayın.*

***Balzak***

*Öz dilinə nəzarət etmək iqtidarında olmayan adamda doğruçuluq olmaz.*

***Qandi***

*Adi bir insan vaxtını necə keçirəcəyini, ağıllı bir insan isə vaxtına necə qənaət edəcəyini fikirləşir.*

***Şopenhauer***

*İnsanların ümidini qırma. Bəlkə də sahib olduqları tək şey odur.*

***Konfutsi***

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

ƏSGƏR

№ 16 (482)
15 avqust
2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# “RUSİYA, İRAN, AZƏRBAYCAN ÜÇTƏRƏFLİ ƏMƏKDAŞLIĞI BÖLGƏDƏ SABİTLƏŞDİRİCİ FAKTORDUR”

*İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti*

**Avqustun 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin üçtərəfli Zirvə görüşü keçirilib.**

***Dövlət başçıları görüşdə çıxış ediblər.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, Bakıda tarixdə ilk dəfə olaraq İran, Rusiya, Azərbaycan prezidentlərinin üçtərəfli görüşünün keçirilməsi tarixi hadisədir.

Dəvəti qəbul edərək Zirvə görüşünün işində iştiraka görə Rusiya və İran prezidentlərinə minnətdarlığını ifadə edən dövlətimizin başçısı qeyd edib ki, bu ilin aprel ayında Azərbaycanın təşəbbüsü ilə Bakıda üç ölkənin xarici işlər nazirləri görüşüblər: “Əminəm ki, bugünkü Zirvə görüşü regional əməkdaşlığa yeni təkan verəcək. Əsrlər boyu yanaşı yaşayan xalqlarımızı ortaq tarix və coğrafiya birləşdirir. Azərbaycanı həm İranla, həm Rusiya ilə sıx dostluq əlaqələri bağlayır. Bu əlaqələr son illərdə daha da inkişaf edib və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İran, Rusiya və Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər, ölkələrimiz həmişə BMT və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyirlər”.

Dövlət başçısı vurğulayıb ki, İran və Rusiya Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır, hər iki ölkə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həll olunmasını dəfələrlə bəyan edib: “Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdırlar. BMT, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyirlər. Münaqişə ilə bağlı mövcud olan status-kvo qəbuledilməzdir. Münaqişə beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Münaqişənin həll olunması üçün ilk növbədə Azərbaycan əraziləri işğaldan azad edilməlidir”.

Azərbaycan dövlətinin başçısı qeyd edib ki, hər üç ölkəni birləşdirən Xəzər dənizi bizim ümumi sərvətimizdir: “Xəzər dənizi sülh və əməkdaşlıq dənizidir və belə də qalmalıdır. Xəzər dənizinin ekosisteminin qorunması bütün xəzəryanı ölkələrin ümumi işidir. Azərbaycan bu istiqamətdə öz töhfələrini verir. Xəzər dənizində zəngin neft-qaz yataqları yerləşir. Xəzərin Azərbaycan sektorunda Rusiya və İran şirkətləri neft-qaz yataqlarının işlənməsində 20 ildir ki, iştirak edirlər, böyük sərmayə qoyurlar. Öz növbəsində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Xəzərin İran və Rusiya sektorlarında aparılan işlərdə iştirak etməkdə maraqlıdır. Üçtərəfli format iqtisadi əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldırmaq üçün yaxşı imkanlar yaradacaq. Rusiya və İran bizim əsas tərəfdaşlarımızdandır. Əminəm ki, üçtərəfli format ölkələrimizin biznes strukturları üçün də faydalı olacaq, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu və qarşılıqlı ixrac imkanlarının genişləndirilməsi iqtisadi əməkdaşlıq üçün böyük əhəmiyyət kəsb edir”.




Respublika Prezidenti ölkələr arasındakı sərhəd mühafizə işində etibarlı əməkdaşlığın mövcudluğunu da vurğulayıb: “Azərbaycan tərəfinin təşəbbüsü ilə İran, Rusiya və Azərbaycan sərhədçilərinin rəhbərləri Bakıda görüşdü. Bu sahədə əməkdaşlığın dərinləşməsi, birgə təlimlər, o cümlədən Xəzər dənizində birgə tədbirlər, operativ informasiya mübadiləsi ölkələrimizin təhlükəsizliyini daha da möhkəmləndirəcək. Nəqliyyat sektorunda əməkdaşlığın çox yaxşı və ümidverici gələcəyi var. Azərbaycan dünyada yeganə ölkədir ki, həm İranla, həm də Rusiya ilə sərhəddi var. Hazırda Rusiya ilə Azərbaycan arasında dəmir yolu əlaqəsi mövcuddur. Bu il biz qərar qəbul etmişik ki, yaxın gələcəkdə Azərbaycan İranla sərhəddinə qədər öz dəmir yolunu uzatsın. Ümid edirəm ki, yaxın gələcəkdə biz buna nail olacağıq. Eyni zamanda, bu yaxınlarda Azərbaycan-İran sərhəddində, Astaraçay üzərində dəmir yolu körpüsünün təməlqoyma mərasimi keçirilib. Bu infrastruktur layihələri “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin tərkib hissələridir. “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi strateji əhəmiyyət daşıyan transmilli layihədir. Gələcəkdə bir çox ölkələr bu dəhlizdən istifadə edəcək. Bu dəhlizin çox böyük iqtisadi səmərəsi var, tranzit yüklərin daşınması üçün vaxt baxımından da bu yol çox əlverişlidir. Ümid edirəm ki, birgə səylərlə tezliklə bu layihənin icrasına nail olacağıq. Sevindirici haldır ki, ölkələrimizdə milli və dini məsələlərdə heç bir problem yoxdur. Bu bizim ölkələrimizin qazandığı dəyər və sərvətdir”.

Prezident İlham Əliyev sonra vurğulayıb ki, üçtərəfli əməkdaşlıq regionda sülhə, təhlükəsizliyin, sabitliyin təmin olunmasına xidmət edəcək: “İqtisadi əməkdaşlıq, nəqliyyat, energetika sektorunda üçtərəfli əməkdaşlıq xalqlarımızın rifah halının yaxşılaşmasını təmin edəcək. Əsasını qoyduğumuz bu format beynəlxalq aləmdə özünə layiqli yer tutacaq. Biz bu gün mehriban qonşuluq nümunəsi göstəririk. Bu gün sübut edirik ki, əgər qarşılıqlı hörmət, xoş niyyət varsa, arzularımız səmimidirsə, bizim qeyri-sabit, böhran və münaqişələrlə dolu regionumuzda ölkələrimizi risklərdən qoruya, sabitliyi möhkəmləndirə, əməkdaşlığı dərinləşdirə bilərik”.

**Sonra Rusiya Prezidenti Vladimir Putin çıxış edərək bildirib ki, Azərbaycan və İran Rusiya üçün mehriban qonşu və mühüm tərəfdaşdır.**

Prezident V.Putin deyib: “Bizim məhsuldar əməkdaşlıq təcrübəmiz var. Bu gün biz, sözsüz ki, münasibətlərdə yeni səhifə açır, üçtərəfli formatda qarşılıqlı fəaliyyətə start veririk”.

Rusiya Prezidentinin sözlərinə görə, belə bir format labüddür.

Prezident V.Putin, həmçinin, qeyri-sabitlik zonaları, qaynar nöqtələr, ilk növbədə “İslam dövləti” və digər terror təşkilatları tərəfindən artan terror təhlükəsi kimi problemlərin həlli yollarının tapılması üçün daha sıx qarşılıqlı fəaliyyət qurulmasının vacibliyini qeyd edib.

Rusiya Prezidenti beynəlxalq terror təşkilatlarının fəaliyyəti haqqında informasiya mübadiləsinin aktivləşdirilməsinin məqsədəuyğun olduğunu qeyd edib: “Bu, bizim ölkələrin ərazisi ilə terrorçuların, silah və narkotikin tranzitinin qarşısının daha səmərəli alınması üçün vacibdir”.

**İran İslam Respublikasının Prezidenti Həsən Ruhani isə deyib ki, İranın xarici siyasətində prioritet qonşu ölkələrlə çoxtərəfli münasibətlərin inkişaf etdirilməsidir: “Ona görə İran qonşuları ilə əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi üçün bütün ideyaları alqışlayır”.**

İran Prezidenti Prezident İlham Əliyevə bu Zirvə görüşünün təşkili üçün minnətdarlığını bildirib.

Onun sözlərinə görə, İranın xarici siyasəti başqa ölkələrə münasibətdə ümumi maraqlar, qarşılıqlı fayda əldə etməni nəzərdə tutur: “Bu çərçivədə, region ölkələri ilə əməkdaşlığı çox faydalı, lazımi və qarşıya qoyulan vəzifələri həll etməyə qadir olan hesab edirik”.

Prezident H.Ruhani bildirib ki, üç xalqın tarixi maraqları və mədəni yaxınlığı münasibətlərin inkişafı üçün yeni şərait yaradır.

İran Prezidenti həmçinin qeyd edib ki, iqtisadiyyat və təbii sərvətlər sahəsində üçtərəfli əməkdaşlıq üçün imkanlar var.

Onun sözlərinə görə, terrorizm və ekstremizm, həmçinin xarici region dövlətlərin ölkənin işinə müdaxiləsi və iqtisadi sanksiyaların siyasi maraqlar üçün istifadə edilməsi yeni iqtisadi problemlər və çağırışlar yaradır - narkotik, separatizm, mütəşəkkil cinayətkarlıq və kibercinayətkarlıq.

**Prezident İlham Əliyev sammitdə yekun nitqində deyib ki, bu gün imzalanan birgə bəyannamə həm görülən işləri, bizim niyyətimizi, mövqeyimizi, eyni zamanda, gələcəyə baxışlarımızı əks etdirir.**

Dövlət başçımız bildirib ki, iki gündür ikitərəfli formatda görüşlər keçirilir: “Şadam ki, həm Azərbaycanın Rusiya və İranla, həm də Rusiyanın da İranla əlaqələri çox yüksək səviyyədədir və bu əlaqələrin inkişafı imkan verir ki, bu gün biz yeni əməkdaşlıq formatı haqqında nəinki danışaq, onu yaradaq. Yaşadığımız region çox mürəkkəbdir, risklərlə, təhdidlərlə dolu bölgədir və getdikcə əfsuslar olsun ki, bu risklər azalmır, artır. Belə olan halda üçtərəfli əməkdaşlıq regional təhlükəsizlik üçün əsas şərtdir. Rusiya, İran, Azərbaycan üçtərəfli əməkdaşlığı bölgədə sabitləşdirici faktordur”.

Azərbaycan Respublikasının Prezidenti çıxışının sonunda əminliklə vurğulayıb ki, bu Zirvə görüşünün nəticələri çox uğurlu olacaq, bəyannamədə əks olunan bütün məsələlər icra ediləcək: “Beləliklə, xalqlarımız daha da yaxşı, təhlükəsizlik, sülh, rifah, əmin-amanlıq şəraitində yaşayacaq. Mən öz həmkarlarıma bir daha minnətdarlığımı bildirmək istəyirəm. Burda qeyd olundu ki, bu görüşün təşəbbüskarı Azərbaycan olub. Bu ilin fevral ayında mən İran İslam Respublikasında rəsmi səfərdə olarkən prezident H.Ruhani ilə bu məsələni müzakirə etdim, ondan çox müsbət cavab aldım. Bundan sonra prezident V.Putinlə əlaqə saxladım, onun da münasibəti çox müsbət oldu. Ondan sonra üç ölkənin xarici işlər nazirləri aprel ayında Bakıda görüşmüşlər və bu Zirvə görüşünün hazırlanması üçün çox fəal iş görmüşlər. İmzaladığımız birgə bəyannamə çox ciddi siyasi sənəddir. Bugünk görüş tarixi görüşdür. Çünki bu həm tarixə əsaslanır, xalqlarımız əsrlər boyu bir yerdə olublar, eyni zamanda, bu tarixdə ilk dəfədir. Əminəm ki, bu görüşün davamı olacaq və bizim ölkələrimizin bundan sonrakı əməkdaşlığı dərinləşəcək”.

**Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və İran Prezidenti Həsən Ruhaninin üçtərəfli görüşünün yekunu olaraq keçirilən sammitdə deklarasiya imzalanıb.**

Qeyd edək ki, sammit çərçivəsində Prezident H.Ruhani üç dövlət başçısının iştirakı ilə növbəti sammitin İranda keçirilməsini təklif edib və bu təklifə görə dövlətimizin başçısı İran Prezidentinə təşəkkür edib.

**Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin icrası istiqamətində respublikanın hüquq-mühafizə, o cümlədən daxili işlər orqanları tərəfindən zəruri tədbirlər cari ilin ötən dövründə də uğurla davam etdirilir.***

Belə ki, cari il iyulun 21-22-də respublikanın Şimal-Qərb bölgəsindəki meşə massivlərində Daxili İşlər Nazirliyinin aidiyyəti qurumları əməkdaşlarının, həmçinin Dövlət Sərhəd Xidməti və Daxili Qoşunların hərbi qulluqçularının iştirakı ilə “Xaş-Xaş 2016” şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər keçirilib.

Xüsusi təyinatlı nəqliyyat vasitələrinin və helikopterlərin də cəlb olunduğu əməliyyatlar nəticəsində meşə zolaqlarında narkotik tərkibli bitkilərin xüsusi aqrotexniki qaydada - kultivasiya yolu ilə yetişdirilməsinə dair 22 fakt müəyyən olunub. Həmin faktlar üzrə ümumi çəkisi 1 ton 450 kiloqram olan 4187 ədəd çətənə kolu aşkar olunaraq maddi sübut kimi götürülüb.

Toplanmış materiallar üzrə Cinayət Məcəlləsinin müvafiq maddəsi üzrə cinayət işləri başlanılaraq zəruri əməliyyat-axtarış və istintaq tədbirləri həyata keçirilir.

Xüsusi əməliyyat və profilaktik tədbirlərin davamı olaraq həmin ərazidə 17 hektar sahədə yabanı halda bitmiş, ümumi çəkisi 18 ton 510 kiloqram olan 11 min 973 ədəd çətənə kolu da aşkar olunaraq məhv edilib.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı analoji tədbirlər davam etdirilir.

# “HƏR BİR ƏSGƏR YÜKSƏK PEŞƏ HAZIRLIĞINA MALİK OLMALI, VƏTƏNƏ, DÖVLƏT VƏ DÖVLƏTÇİLİYİMİZƏ SADİQLİK NÜMAYİŞ ETDİRMƏLİDİR!”

***Bu fikirləri Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov xidmətə yeni qəbul edilmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə görüşü zamanı vurğulayıb***

İyul ayının 31-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov qoşunların 25031 saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərlə görüşüb.

Əvvəlcə cənab Komandan əsgərlərin kazarma-məişət şəraiti ilə tanış olub, onların sağlamlığı və qidalanmasının keyfiyyəti ilə maraqlanıb.

Sonra şəxsi heyət qarşısında çıxış edən Daxili Qoşunların Komandanı, ümumilikdə, respublikamızın sosial-iqtisadi inkişafı, həyata keçirilən islahatlar nəticəsində dövlətimizin günü-gündən artan beynəlxalq nüfuzu, regionda ən güclü Silahlı Qüvvələrə malik olması, eləcə də Daxili Qoşunların qarşısında duran vəzifələr haqqında məlumat verərək, xidmətə məsuliyyətlə yanaşmağı tövsiyə edib.

O, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yüksək döyüş hazırlığına malik silahlı birləşmə kimi formalaşmasında Ümummilli Lider Heydər Əliyevin çox böyük əməyinin olduğunu vurğulayaraq qeyd edib ki, bu gün Azərbaycan Respubli-kasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən şəxsi heyətə yüksək diqqət və qayğı göstərilməkdədir.

General-leytenant Ş.Məmmədov bildirib ki, Daxili Qoşunlar ona həvalə olunmuş vəzifələri yerinə yetirməklə şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar və digər hüquqazidd qəsdlərdən qoruyur.

Eyni zamanda vurğulanıb ki, ölkədə ictimai təhlükəsizliyin təmin edilməsində və ictimai qaydanın qorunmasında Daxili Qoşunlar üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməkdədir.

Bildirilib ki, Daxili Qoşunlarda xidmət edən hər bir əsgər yüksək peşə hazırlığına malik olmalı, Vətənə, dövlət və dövlətçiliyimizə sadiqlik nümayiş etdirməlidir.

**Mətbuat xidməti**

